# İlham Əliyev: Səmimiyyət və dostluq qarşılıqlı olmalıdır



## "İsgəndər" raketləri ilə bağlı həqiqətlər ortaya çıxır

***Aprelin 20-də Prezident İlham Əliyev Hacıqabul rayonuna səfər edib. Bir sıra tədbir və açılışlarda iştirak edən ölkə başçısı Azərbaycan Televiziyasına müsahibə verib. Bölgələrimizdəki sosial-iqtisadi inkişafdan, infrastruktur layihələrinin icrasından danışan Prezident, həmçinin II Qarabağ müharibəsi zamanı Şuşaya atılan "İsgəndər-M" raketləri ilə bağlı da bəzi məsələlərə aydınlıq gətirib.***

Məlum olduğu kimi, bir müddət əvvəl Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) Şuşa şəhərində "İsgəndər-M" raketlərinin qalıqlarının aşkar edildiyi barədə məlumat vermişdi. "İsgəndər-M" raketlərinin qalıqlarının nümayiş etdirilməsi ilə birlikdə Azərbaycanda istər ekspertlər, istər media nümayəndələri, istərsə də xalq arasında ən çox müzakirə edilən mövzuya çevrilən bu faktı haqlı olaraq insanlarda narahatlığa səbəb oldu. Bildirilib ki, 4 fərqli nöqtədə aşkar edilən bu hissələr "İsgəndər-M" operativ taktiki raket kompleksindən atılan raketlərin qalıqlarıdır.

Raket qalıqlarının aşkar edilməsi ilə təkcə Azərbaycanda deyil, o cümlədən, dünya ictimaiyyətində də bəzi suallar yarandı. Ortaya çıxan suallardan ən mühümü isə Ermənistanın "İsgəndər-M" raketlərini haradan və necə əldə etməsi idi. Çünki bir neçə il əvvəl Ermənistanın və Rusiyanın rəsmi qaynaqlarında yer alan məlumata görə, Ermənistana yalnız "İsgəndər-E" raketlərinin satıldığı qeyd olunmuşdu.

Məsələnin ciddiliyini dərk etmək üçün əvvəlcə bu iki raket arasındakı fərqi bilmək vacibdir. Belə ki, "İsgəndər-E" raket kompleksi 280 kilometr məsafədəki hədəfləri vura bilirsə, "İsgəndər-M" raketində bu göstərici 500 kilometrə bərabərdir. Ermənistan daha uzaqmənzilli bu raketlərə sahib deyildi. Və məlum məsələdir ki, qanuni yollarla əldə olunmayan, ixrac edilməsi qadağan olunan bu təhlükəli silahın istifadəsi, hansı yolla tədarük edilməsindən asılı olmayaraq, müharibə cinayətidir.

Prezident İlham Əliyev bildirib ki, bu məsələ ilə bağlı Rusiya Müdafiə Nazirliyi Azərbaycan Müdafiə Nazirliyinin məktubuna cavab göndərmişdir. Lakin bu məktubun mətni ünvanlanan suala tam cavab mahiyyəti daşımır. Azərbaycandan göndərilən məktubda əsas sual o idi ki, "İsgəndər-M" raketlərini Ermənistan hansı yolla əldə edib? Necə olub ki, bu raketlər onların əlinə düşüb?

Daha sonra ölkə başçısı qeyd etdi ki, bu raket kompleksi başqa heç bir ölkədə yoxdur. Və belə çıxır ki, Ermənistanın bu raketləri əldə etməsinin iki yolu var: ya qaçaqmalçılıq, ya da beynəlxalq hüququ pozma. Bu səbəbdən, "İsgəndər-M" raketlərinin əldə olunması sadə məsələ deyil. Odur ki, Azərbaycan bu məsələyə görə narahatdır. Prezident İlham Əliyev bu narahatlığın Rusiya tərəfinə çatdırıldığını ifadə etdi: "Ermənistan ordusunda "İsgəndər-M" raketləri ola bilməzdi. Bunun ancaq iki yolu var. Başqa yolu ola bilməz. Çünki heç bir başqa ölkədə bu raketlər yoxdur. Bax, bu suala bizə cavab verilməlidir. Biz bu cavabı gözləyirik, Azərbaycan xalqı gözləyir. Biz bir çox məsələləri özümüz üçün aydın etmişik. Biz bilirik, bu raketlər nə vaxt və nə üçün atılıb. Ancaq bizə rəsmi cavab verilməlidir, bu raketləri bizə atan Ermənistandan və Rusiyadan. Bu raket sistemləri ya Ermənistana verilib, yaxud da ki, qanunsuz yollarla Rusiyadan oğurlanaraq çıxarılıb. Bu suallara cavab yoxdur. Əlbəttə ki, bu, xoşagələn vəziyyət deyil".

Müharibənin bitməsindən bir neçə gün sonra Ermənistan müdafiə nazirliyinin hərbi nəzarət xidmətinin rəhbəri olmuş Movses Akopyan "İsgəndər" raketinin atılması ilə bağlı demişdi ki, atıldığından xəbəri var, lakin hara atıldığını deməyəcək. Müəyyən tarixlərdə bir-biri ilə uzlaşmayan açıqlamalar verən Ermənistan rəhbərliyi bu məsələyə aydınlıq gətirmək istəmir, verilən suallardan qaçır. Daha sonra keçmiş prezident Serj Sarkisyan müharibənin son günlərində Şuşa şəhərinə "İsgəndər" raketlərinin atılması ilə bağlı əlində real faktlar olduğunu açıqlamışdı.

Sonrakı mərhələdə ortaya çıxan faktlar qarşısında aciz qalan Ermənistanın baş qərargah rəisi Artak Davtyan bu raketlərin istifadə edilməsini məcburi olaraq boynuna aldı. Lakin daha sonra verilən sualları cavablandırmaqdan boyun qaçırdı.

Baş nazir Nikol Paşinyan və onun komandası da II Qarabağ müharibəsi zamanı "İsgəndər" raketlərinin istifadə edildiyini, lakin çox az bir hissəsinin partladığını bildirsə də, Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi İqor Konaşenkov bildirmişdi ki, İkinci Qarabağ müharibəsi zamanı Ermənistan bir "İsgəndər" raketindən belə istifadə etməyib.

Hadisələrin və həqiqətlərin bu qədər təhrif olunduğu məsələ ilə bağlı Prezident İlham Əliyevin söylədikləri isə hər zaman olduğu kimi, yetərincə açıq və izahlı oldu. Ölkə başçısı qeyd etdi ki, bu raketlərin qalıqları Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş etdirilir və indiki mərhələdə bu faktı inkar etmək, sadəcə olaraq, mümkün deyil.

Bundan əlavə, dünyanın bir sıra aparıcı media qurumlarında Ermənistan tərəfindən Azərbaycan ərazisinə "İsgəndər-M" raketlərinin atılması ilə bağlı xəbər yayımlandı. Bu da onu göstərir ki, bu raketlərin qanunsuz əldə olunması, o cümlədən, istifadə edilməsi təkcə Azərbaycanda deyil, həmçinin bütün dünyada ciddi narahatlığa səbəb olub. Belə ki, xarici media məlumatlarında, bu öz əksini tapıb. Prezident yanında Dövlət İdarəçilik Akademiyasının baş müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov bildirib ki, ABŞ-ın "Azadlıq" radiosu və Litvanın "Slaptai" xəbər saytı, Türkiyənin "Anadolu" agentliyi, Vaşinqtondakı "Jamestown" Qlobal Araşdırma və Analitika Fondunun saytı, o cümlədən, "konflikty.pl", "eurasiantimes.com", "Caucasus Watch", "pl.sputniknews.com" saytları, Türkiyənin "yenisafak.com", "sabah.com", "haber7.com" saytları, "Haber türk" telekanalı, "İstikrar" qəzeti, Gürcüstanın "interpress.ge", "accentnews.ge", "4news.ge", "ghn.ge" və digər informasiya portalları, 1tv.ge ictimai televiziya kanalı, Ukraynanın "dialog.ua" "İnterfaks-Ukrayna", "mil.in.ua" saytları, İndoneziyanın "international. sindonews" saytı və digərləri bu məlumatı öz auditoriyalarına təqdim ediblər.

İndi hər şey göz qabağındadır. Ermənistanın qanunsuz şəkildə öz arsenalına qatdığı "İsgəndər-M" raket kompleksinin və onun timsalında hansısa yollarla əldə olunan silahların aşkar edilməsi onu göstərir ki, ermənilər "güclü", "məğlubedilməz" ordularına məhz bu səbəbdən güvənirlərmiş. Onlar elə zənn edirdilər ki, bütün bu faklar gün üzünə çıxmayacaq və Ermənistan beynəlxalq hüququn normalarını pozaraq, qaçaqmalçılıqla əldə etdiyi, bir çoxunun istifadəsi qadağan olunan bu silahlarla müharibədə zəfər əldə edəcək. Yaxşı deyiblər, sən saydığını say, gör fələk nə sayır.

Həmçinin Prezident İlham Əliyev qeyd etdi ki, Rusiyanın bəzi mətbuat orqanlarında bu faktın saxtalığı ilə bağlı müxtəlif versiyalar irəli sürülür və bunlar sistemli yanaşmalardır: "Bir halda ki, Rusiya mətbuatında "İsgəndər-M" raketləri ilə bağlı cəfəng versiyalar irəli sürülür, bir şey də deyə bilərəm. Mən bunu, sadəcə olaraq, təsadüfi versiyalar hesab etmirəm. Çünki hətta, o versiyalarda da, – düzdür, bu, mətbu orqanlar tərəfindən irəli sürülüb, – hər halda, biz hansısa sistemli yanaşma görürük. Guya ki, Azərbaycan Türkiyə ilə birlikdə bu "İsgəndər-M" raketlərinin qalıqlarını Suriyadan gətiribdir və Şuşaya qoyubdur. Bu, bizə qarşı açıq ittihamdır".

Dövlət başçısı əlavə edib ki, Azərbaycan dəfələrlə belə faktlarla üz-üzə gəlib. Lakin heç kim deyə bilməz ki, biz nə vaxtsa bu kimi saxtakarlıq etmişik.

İndi Azərbaycanın əsas missiyası bölgədə davamlı sülhün təmin edilməsidir. Biz işğaldan azad edilən torpaqlarımızda bərpa-quruculuq işləri aparırıq. Belə olan şəraitdə bu kimi təxribatların törədilməsi ancaq öz işimizə əngəl yaradar. Xülasə, Prezidentimizin dediyi kimi, belə təxribatlarla bizi ittiham edənlərin gərək, heç olmasa, bir faiz vicdanı olsun.

İkinci versiya olan qaçaqmalçılıq ehtimalına gəldikdə isə, İlham Əliyevin dediyi kimi, əlbəttə, bu məqam da ciddi araşdırılmalıdır. Çünki, məlum olduğu kimi, Ermənistan müharibə dövründə qaçaqmalçılıq yolu ilə külli miqdarda silah əldə etmişdir. Bu silahların böyük hissəsi Rusiyadan Ermənistana keçirilmişdir. Əlbəttə, bütün bu faktlar bizim tərəfimizdən Rusiyanın müvafiq dövlət orqanlarına çatdırılıb. Hətta Prezident İlham Əliyev qeyd etdi ki, beynəlxalq aviasiya təşkilatına da bu faktlarla bağlı məktublar göndərilmişdir: "Biz beynəlxalq aviasiya təşkilatı olan ICAO-ya rəsmi məktublar göndərmişik. O məktublarda deyilmişdir ki, biz dəqiq bilirik, – reyslərin nömrələrini də vermişdik, yazmışdıq, – bu təyyarələrlə, sərnişin təyyarələri ilə Rusiyadan Ermənistana silahlar gətirilir. Silahların növlərini də göstərmişdik. Baxmayaraq ki, müharibə dövründə dəfələrlə belə məktublar göndərilmişdir, ancaq ICAO-dan heç bir cavab gəlməmişdir".

Ölkə başçısı əlavə etdi ki, bizim əlimizdə dəqiq məlumatlar var ki, erməni silah alverçisi David Qalustyan qanunsuz yollarla Rusiya hərbi zavodlarından silahlar alıb və sərnişin təyyarələri ilə Ermənistana göndərib. Bu silahların pulu isə Rusiyada yaşayan erməni oliqarxlar tərəfindən ödənilib.

Bu, cinayətdir və bu işdə əli olan insanlar məsuliyyətə cəlb olunmalıdırlar. İlham Əliyev xüsusi vurğuladı ki, adı çəkilən şəxs, həmçinin Ermənistanın keçmiş müdafiə naziri Tonoyanın biznes şərikidir və onlar bu qaçaqmalçılıqla həm də qanunsuz qazanc əldə ediblər. Təsadüfi deyil ki, vaxtı ilə Azərbaycanı müharibə ilə hədələyən müdafiə naziri məğlubiyyətdən sonra vəzifədən uzaqlaşdırıldı.

Sonda ölkə başçısı bildirdi ki, belə məlumatlar bizdə çoxdur və lazım olarsa, biz bu faktları açıqlamağa hazırıq.

***İmran ƏLİYEV, "Xalq qəzeti"***